

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 91 (21.501)

*19 may 2016-cı il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Rusiya ilə Azərbaycan arasında əlaqələrin uğurla və dinamik şəkildə inkişaf etdiyini deyən dövlətimizin başçısı Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozinin Azərbaycana səfərinin ölkələrimiz arasında ikitərəfli münasibətlərin gündəliyi ilə bağlı məsələlərin bir daha nəzərdən keçirilməsi üçün yaxşı imkan yaratdığını bildirib. Prezident İlham Əliyev Dmitri Roqozinin Azərbaycan-Rusiya Hökumətlərarası Birgə Komissiyasının həmsədri kimi Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişafındakı rolunu xüsusi qiymətləndirib. Ölkəmizin Hökumətlərarası Birgə Komissiyadakı fəaliyyətindən danışan dövlətimizin başçısı Azərbaycan tərəfinin də iki ölkə arasında münasibətlərin daha da yaxınlaşdırılması üçün səylərini əsirgəmədiyini vurğulayıb.

Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozin Azərbaycan ilə Rusiya arasında ticari-iqtisadi, mədəni, təhsil və digər sahələrdə əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyanın iclaslarının əməkdaşlığımızın inkişafı baxımından önəmini vurğulayıb.

Görüşdə ölkələrimiz arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Mayın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Avstriya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Aksel Vexlə görüşmüşdür.

Ali Məclisin Sədri Aksel Vexin Naxçıvana səfərini və ölkəmizin regionları ilə tanışlığını Azərbaycan-Avstriya əlaqələrinin göstəricisi kimi dəyərləndirmişdir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Avstriyanın Ştiriya Federal Əyaləti arasında ikitərəfli əlaqələrin mövcud olduğunu bildirən Ali Məclisin Sədri 2007-ci ildə nümayəndə heyəti ilə birlikdə Avstriyaya səfərini və 2009-cu ildə Ştiriya Federal Əyaləti Parlamenti sədrinin başçılıq etdiyi nümayəndə heyətinin Naxçıvana səfərini xatırlatmış, qarşılıqlı səfərlərin əlaqələrin inkişafına töhfə verdiyini bildirmişdir.

Ali Məclisin Sədri iş adamları arasındakı əlaqələrin səmərəli olduğunu və Avstriyanın enerji şirkətləri ilə faydalı əməkdaşlığın qurulduğunu bildirmiş, əlaqələrin bundan sonra da müxtəlif sahələr üzrə davam etdiriləcəyinə inamını ifadə etmişdir.

Naxçıvana nümayəndə heyəti ilə birlikdə səfər etdiklərini bildirən Aksel Vex göstərilən səmimi münasibətə və qonaqpərvərliyə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir. Səfər müddətində bir sıra görüşlər keçirdiklərini qeyd edən qonaq Avstriya ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiklərini diqqətə çatdırmışdır.

Görüşdə əlaqələrin hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Avstriya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Aksel Vexin Naxçıvana səfəri davam edir

***Avstriya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Aksel Vex mayın 15-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlib. Səfər çərçivəsində avstriyalı qonaq Naxçıvanın gəzməli-görməli yerləri, təhsil, səhiyyə, mədəniyyət, yerli istehsal və emal müəssisələri ilə tanış olub.***



Mayın 16-da Naxçıvan Dövlət Universiteti və "Naxçıvan" Universitetində olan səfir sonra Naxçıvan Biznes Mərkəzinə gedib. Səfirə məlumat verilib ki, mərkəzin əsas məqsədi muxtar respublikada sahibkarlığın inkişafına dəstək göstərməkdən ibarətdir. Hazırda burada muxtar respublikada istehsal olunan məhsullar nümayiş etdirilir, eyni zamanda yerli sahibkarlarla müxtəlif görüş və treninqlərin keçirilməsi, onlara biznes məsləhətlərin verilməsi, metodoloji köməkliklərin göstərilməsi təmin olunur. 900-dən çox çeşiddə müxtəlif yerli məhsulların nümayiş etdirildiyi Naxçıvan Biznes Mərkəzi həm də muxtar respublikanın iqtisadi potensialı ilə tanışlıq baxımından əsas ünvanlardan biridir.

Avstriya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Aksel Vex həmin gün "Gəmiqaya Mineral Sular", "Gəmiqaya Mebel Fabriki", "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli cəmiyyətlərində, "Cahan Holdinq" Şirkətlər İttifaqının plastik məmulatlar və tütün istehsalı müəssisələrində yerli istehsalla tanış olub, bu müəssisələrin fəaliyyəti ilə maraqlanıb. Bildirilib ki, muxtar respublikada sahibkarlıq mühitinin formalaşdırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması özəl sektorun inkişafına mühüm təsir göstərib. Bu da, öz növbəsində, muxtar respublikada yeni müəssisələrin yaradılmasına, onların keyfiyyətli və ixracyönümlü məhsullar istehsal etməsinə imkan verib.

Həmin gün avstriyalı diplomat Şahtaxtı sərhəd-keçid kompleksində də olub, muxtar respublikanın xarici əlaqələrində mühüm rol oynayan kompleksin imkanları haqqında məlumatlandırılıb.

Duzdağ Fizioterapiya Mərkəzində səfirə bu müalicə obyektinin fəaliyyəti, mərkəzin muxtar respublikanın turizm potensialında yeri barədə məlumat verilib.

Avstriya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Aksel Vex mayın 17-də Şahbuz rayonunda fəaliyyət göstərən "İşgəsu" balıqçılıq təsərrüfatında olub, müəssisənin fəaliyyəti, istehsal imkanları haqqında məlumatlar alıb.

Şahbuz rayonu ərazisində yerləşən Ağbulaq İstirahət Mərkəzi və Batabat kurort zonası ilə tanışlıq isə avstriyalı səfirin muxtar respublikanın ecazkar təbiəti və turizm potensialı haqqında ətraflı məlumatlar almasına imkan verib.

Səfir həmin gün Babək rayonu ərazisində yaradılmış Naxçıvan Günəş Elektrik Stansiyası ilə də tanış olub.

Dünən isə avstriyalı səfir muxtar respublikanın mədəniyyət müəssisələri ilə tanış olub, Naxçıvan şəhərinin tarixi abidələrini ziyarət edib.

Heydər Əliyev Muzeyi ilə tanışlıqdan sonra Naxçıvan Dövlət Xalça Muzeyi, Dövlət Bayrağı Meydanı və Muzeyi, Naxçıvan Dövlət Musiqili Dram Teatrı, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, Heydər Əliyev Sarayı və Rəsm Qalereyası, Xatirə Muzeyi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində olan qonaq Naxçıvanın tarixi və mədəniyyətini yaşadan bu müəssisələrdən yüksək təəssüratla ayrılıb.

Qeyd edək ki, səfir Aksel Vexin muxtar respublikaya səfəri bu gün başa çatır.

✍ **Səbuhi HƏSƏNOV**

***Mayın 18-də Naxçıvan şəhərində "Sərhəd qurumları əməkdaşlarının liderlik və idarəçilik üzrə bilik və bacarıqlarının artırılması" mövzusunda milli təlimə başlanılıb.***

## "Sərhəd qurumları əməkdaşlarının liderlik və idarəçilik üzrə bilik və bacarıqlarının artırılması" mövzusunda milli təlim keçirilir



Təlim Avropa İttifaqı, Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramı və Azərbaycan Hökumətinin birgə reallaşdırdıqları sərhəd idarəçiliyi layihəsi çərçivəsində keçirilir. Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin, Dövlət Gömrük Komitəsinin, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının əməkdaşları iştirak edirlər.

Birləşmiş Millətlər Təşkilatının Strateji Əməkdaşlıq üzrə müşaviri Məzahir Əfəndiyev tədbir iştirakçılarını salamlayaraq qeyd edib ki, sərhəd xidmətinin təkmilləşdirilməsi istiqamətində istər maddi-texniki bazanın möhkəmləndirilməsi, istərsə də şəxsi heyətin peşəkarlığının yüksəldilməsi, yeni və müasir sərhəd infrastrukturunun yaradılması baxımından Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında mühüm işlər görülüb.

Məzahir Əfəndiyev deyib ki, sərhəd idarəçiliyi prosesinin əsas elementlərindən biri sərhəd idarəçiliyini həyata keçirən qurumlarda idarəçilik modellərinin ən qabaqcıl beynəlxalq təcrübələrə əsaslanaraq mütəmadi təkmilləşdirilməsidir. Təlimdə də məhz bu məsələlərə diqqət yönəldiləcəkdir. Məqsəd sərhəd idarəçiliyində iştirak edən orqanlarda idarəetmə və rəhbərlik bacarıqlarının gücləndirilməsinə dair nəzəri biliklərin artırılmasıdır. Bundan başqa, bu sahədə motivasiya, birgə fəaliyyət və struktur quruculuğu, idarəçilik üslubu, təşkilati inkişaf və idarəetmədə yarana biləcək çətinliklərin aradan qaldırılması üzrə məlumat mübadiləsinin gücləndirilməsi məsələləri də əsas məqsədlərdən biridir. Təlimin sonunda iştirakçılar bu sahədə əməkdaşlığa dair beynəlxalq təcrübəni müzakirə edərək belə əməkdaşlığın səmərəliliyi və icra mexanizmləri ətrafında geniş fikir mübadiləsi aparacaqlar.

Birləşmiş Millətlər Təşkilatının Strateji Əməkdaşlıq üzrə müşaviri təlim iştirakçılarına uğurlar arzulayıb.

Layihə üzrə tərəf-müqabili Beynəlxalq Miqrasiya Siyasətinin İnkişaf Mərkəzinin (ICMPD) Avstriyadan olan beynəlxalq ekspertləri Robert Glökl və Heinz Shneider sərhəd idarəçiliyi sahəsində dünyada əldə edilən ən son nailiyyətlər və bu sahədə beynəlxalq aləmdə gedən proseslər barədə ətraflı məlumat veriblər. Ekspertlər müasir sərhəd idarəçiliyi modelləri barədə danışıblar.

Üç gün davam edəcək təlimin bağlanış mərasimində iştirakçılara sertifikatlar təqdim olunacaq.

✍ **Rauf ƏLİYEV**

*Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində ixtiraçılıq sahəsində nailiyyətlərə görə III Respublika Müsabiqəsinin qaliblərindən olan AMEA Naxçıvan Bölməsi əməkdaşlarının mükafatlandırılmasına həsr edilmiş tədbir keçirilib.*

## İxtiraçılıq sahəsində nailiyyətlərə görə III Respublika Müsabiqəsinin qalibləri sırasında naxçıvanlı alimlər də var



Tədbiri giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb. Bildirib ki, Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən ölkəmizdə elmin, sənayenin, təsərrüfatın aktual problemlərinə alimlərin, ixtiraçıların, mühəndis-texniki işçilərin və təsərrüfat subyektlərinin cəlb edilməsinə yardım göstərilməsi məqsədilə ixtiraçılıq sahəsində nailiyyətlərə görə III Respublika Müsabiqəsi elan edilmişdi. Bununla əlaqədar olaraq bu il mayın 5-də müsabiqə qaliblərinin təltif olunmasına həsr edilmiş tədbir keçirilib. Müsabiqə komissiyasının qərarına əsasən 11 ixtira patenti qalib olub.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Patent şöbəsinin müdiri Pəncalı Hüseynov çıxış edib. Bildirilib ki, əqli mülkiyyətin idarə olunması bu gün muxtar respublikamızda həyata keçirilən iqtisadi siyasətin mühüm tərkib hissəsidir. Bu sahədə dövlət siyasətini həyata keçirən Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi sənaye mülkiyyəti obyektlərinin mühafizəsi ilə bağlı daxil olan hər bir iddia ərizəsi üzrə ilkin ekspertizanın aparılmasında və patentləşdirmə proseslərində iddiaçılara hərtərəfli köməklik göstərir. İxtiraçılıq sahəsində nailiyyətlərə görə III Respublika Müsabiqəsinə komitə tərəfindən 2014-2015-ci illərdə qeydiyyata alınmış 4 ixtira patenti göndərilmişdi. Sevindirici haldır ki, respublika əhəmiyyətli müsabiqədə qalib olmuş 11 ixtiradan biri məhz Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinə məxsusdur. Bayram Rzayevin, Aliyə Rzayevanın, Əhməd Qarayevin, Rafiq Quliyevin müəllifi olduqları "Element kükürdün həll edilmə üsulu" ixtira patenti diploma və pul mükafatına layiq görülüb.

Qeyd olunub ki, komitə bundan sonrakı fəaliyyətində də muxtar respublika rəhbərinin tapşırığına uyğun olaraq ixtiraların patentləşdirilməsi və müvafiq müsabiqələrə təqdim olunması işini davam etdirəcəkdir.

Sonda AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun elmi işlər üzrə direktor müavini, kimya üzrə elmlər doktoru Bayram Rzayev çıxış edərək həmmüəlliflər adından elmə göstərilən qayğıya və onların əməyinə verilən yüksək qiymətə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

## Eynəli bəy Sultanovun 150 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans

***Mayın 18-də Eynəli bəy Sultanovun 150 illik yubileyi münasibətilə Naxçıvan Müəllimlər İnstitutunda elmi-praktik konfrans keçirilib.***



Konfransı giriş sözü ilə Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında" 2016-cı il 15 fevral tarixli Sərəncamı ilə görkəmli yazıçının yubileyi muxtar respublikada geniş qeyd olunur.

Vurğulanıb ki, Eynəli bəy Sultanov Azərbaycan ədəbiyyatı, mətbuatı və teatrı, habelə ictimai fikir tarixində mühüm yer tutur. Onun xalqımızın maariflənməsi və mədəni tərəqqisi yolunda göstərdiyi xidmətlər Azərbaycan ictimai fikir tarixinin mühüm səhifəsini təşkil edir.

Bildirilib ki, 1880-1886-cı illərdə İrəvan kişi gimnaziyasında təhsilini davam etdirən gənc Eynəli öz bilik səviyyəsini xeyli zənginləşdirib, Avropa ədəbiyyatını və Qərb maarifçiliyini dərindən mənimsəyib. 1886-cı ildə gimnaziyanın yeddinci sinfindən çıxdıqdan sonra yüksək hazırlığı, mənəvi yetkinliyi, ədəbi istedadı nəzərə alınaraq məktəbin pedaqoji şurasının qərarı ilə ona şəhər ibtidai məktəblərində müəllimlik etmək hüququ verilib. O, hələ gimnaziyada oxuyarkən Naxçıvanda maarifçi mühitin formalaşmasında yaxından iştirak edib, 1882-1883-cü illərdə burada "Ziyalı məclisi", "Müsəlman dram incəsənəti cəmiyyəti" kimi ədəbi-mədəni mərkəzlər yaradıb. Bu mərkəzlərdə dövrün ictimai-siyasi məsələləri tez-tez müzakirə edilir, fanatizmə qarşı mübarizənin yolları araşdırılır, məktəblər, kitabxanalar açmaq qərara alınır və digər mədəni tədbirlər həyata keçirilirdi.

Konfransda Naxçıvan Müəllimlər İnstitutunun müəllimləri – filologiya üzrə fəlsəfə doktoru, dosent Fəxriyə Cəfərova "Eynəli bəy Sultanovun həyat və yaradıcılığı", filologiya üzrə elmlər doktoru, professor Yusif Səfərov "Eynəli bəy Sultanovun folklorşünaslıq fəaliyyəti" mövzularında çıxışlar ediblər.

Çıxışlarda görkəmli yazıçı-publisist və pedaqoq Eynəli bəy Sultanovun çoxşaxəli fəaliyyətindən söhbət açılıb, onun ədəbiyyatımıza verdiyi töhfələrdən danışılıb.

**Xəbərlər şöbəsi**

## Beynəlxalq Muzeylər Günü qeyd edilib



***Dünən Naxçıvan Dövlət Xalça Muzeyində Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Beynəlxalq Muzeylər Gününə həsr olunmuş tədbir keçirilib.***

Tədbirdə mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, YUNESKO-nun Beynəlxalq Muzeylər Şurasının qərarına əsasən, 1978-ci ildən başlayaraq dünya ölkələri mayın 18-ni Beynəlxalq Muzeylər Günü kimi qeyd edir. Dünyanın 150-dən çox ölkəsində bu günün keçirilməsində əsas məqsəd xalqlar arasında mədəni mübadilə və əməkdaşlığın inkişafına kömək göstərmək, hər bir ölkədə ictimaiyyətin diqqətini mədəni irsə və tarixi keçmişə yönəltməkdir.

Vurğulanıb ki, ölkəmizdə bu sahənin inkişafı, muzeylər şəbəkəsinin yaradılması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimiz Heydər Əliyev həmişə muzeylərə böyük önəm verir, bu sahəyə diqqət və qayğı göstərirdi.

"Bu gün doğma Azərbaycanımızda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu sahədə uğurlu addımlar atılır, məqsədyönlü layihələr həyata keçirilir. Hazırda Azərbaycanda 200-dən çox muzey fəaliyyət göstərir", – deyən nazir Naxçıvan Muxtar Respublikasında muzeylərin fəaliyyətinin canlandırılması, muzey şəbəkələrinin genişləndirilməsi sahəsində görülən işlərdən də söhbət açıb. Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı nəticəsində muxtar respublikamızda yeni muzeylər yaradılıb, fəaliyyətdə olan muzeylər müasir tələblər əsasında qurulub və yeni eksponatlarla zənginləşdirilib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamına uyğun olaraq, mərkəzi və yerli icra hakimiyyəti orqanları kollektivlərinin muzeylərə gedişi təşkil edilib. Eyni zamanda muzeylərimizdə açıq dərslər keçilir, təhsil müəssisələri ilə muzeylər arasında interaktiv əlaqələr yaradılır, virtual təhsil mühitinin formalaşdırılması və elektron təhsilin tətbiqinin genişləndirilməsi üçün tədbirlər görülür.

Nazir çıxışının sonunda qeyd edib ki, muzey işçilərinin Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, digər dövlət təltiflərinə layiq görülmələri onların əməyinə verilən yüksək qiymətin ifadəsidir.

Sonra Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru Zəminə Gülməmmədovanın "Xalçaçılıq sənəti yaşadılır", Naxçıvan Dövlət Universitetinin Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması ixtisası üzrə IV kurs tələbəsi Nərmin Orucovanın "Mədəni irsimizin təbliğində gənclərin rolu" mövzularında çıxışları olub.

Tədbirdə il ərzində fərqlənən muzey əməkdaşlarından bir qrupu nazirliyin fəxri fərmanı ilə təltif edilib.

Sonda muzeyin ekspozisiyasına baxış olub.

**Əli RZAYEV**

***Naxçıvanın sürətli iqtisadi inkişafı, buradakı sabitlik muxtar respublikanı cazibə mərkəzinə çevirib.***

## Blokada şəraitində olan Naxçıvan öz inkişafı ilə dünyanın diqqət mərkəzindədir



Bu gün özündən kiçik ölkələrə yuxarıdan aşağı baxmağa adət edən Avropa və Qərb üçün müasir Azərbaycan güclü bir dövlət, qüdrətli tərəfdaş və sürətli iqtisadi, siyasi inkişaf modelinə malik, yüksək gələcək perspektivi olan bir ölkədir. Bu ölkənin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının özü isə ayrıca nümunə modelidir. Məhz elə bu səbəbdəndir ki, artıq beynəlxalq təşkilatların səlahiyyətli nümayəndələri, müxtəlif ölkələrin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirləri Naxçıvana tez-tez səfər edirlər. Təbii ki, ilk növbədə, məqsəd muxtar respublika ilə tanışlıq və onun iqtisadiyyatını, sosial-mədəni həyatını yaxından öyrənməkdir.

Təkcə bu ilin ötən dövrü ərzində rəsmi şəkildə Naxçıvana səfər edən Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan Respublikasındakı rezident nümayəndəsi vəzifəsini icra edən Ercan Murat, Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Serhan Aktoprak, Rumıniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Daniel Kristian Çiobanu, Türkiyə Respublikası Ali Məhkəməsinin sədri İsmayıl Rüştü Cirit və onu müşayiət edən nümayəndə heyəti, Beynəlxalq Miqrasiya Təşkilatının Beynəlxalq Əməkdaşlıq və Tərəfdaşlıq İdarəsinin direktoru xanım Jill Helken, BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi və BMT İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İsakzai, İsveçrə Konfederasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Filip Ştalder, Koreya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Kim Çanq-Qyu Naxçıvanda rəsmi görüşlər keçirib və muxtar respublikanın iqtisadiyyatı, turizm potensialı, abidələri, təhsil sistemi ilə yaxından tanış olublar. Maraqlı burasıdır ki, bu rəsmi qonaqların hər biri Naxçıvan haqqında özünəməxsus ifadələr işlədib, muxtar respublikanın inkişaf tempini, şəhərsalma mədəniyyətini, ictimai-siyasi sabitliyi, ekoloji təmizliyi dünya səviyyəsində gedən proseslərlə müqayisə edərək yüksək qiymətləndiriblər. Muxtar respublikadakı qonaqpərvərliyi, qonağa isti münasibəti, keçmişə bağlılığı görən Türkiyə Ali Məhkəməsinin sədri İsmayıl Rüştü Cirit özünün Naxçıvan kökənli olması ilə fəxr etdiyini dilə gətirib. Rumıniyanın ölkəmizdəki səfiri Daniel Kristian Çiobanu 3 günlük səfəri çərçivəsində daha geniş proqramla Naxçıvanı gəzib. Əgər nəzərə alsaq ki, Rumıniyanın ölkəmizdəki səfirliyi NATO-nun Azərbaycandakı əlaqələndiricisidir, onda bu səfərin həm də NATO çərçivəsində maraqlı olduğu qənaətinə gəlmək olar. Nəticədə isə dünyanın ən nüfuzlu hərbi gücünün Naxçıvandakı hərtərəfli və iqtisadi inkişafı yüksək qiymətləndirdiyi faktı ortaya çıxır.

Amerika Birləşmiş Ştatlarından olan siyasi analitik və araşdırmaçı jurnalist Peter Tase isə hətta özünün son illər Amerikada məhz Naxçıvanla bağlı yazdığı yazılara görə populyarlığının daha da artdığını etiraf edib. Çünki dünyada Naxçıvanı Nuh Peyğəmbərlə bağlı bir məkan, tolerantlıq nümunəsi olan unikal yer olmaqla bərabər, həm də ümummilli lider, dünya şöhrətli siyasətçi Heydər Əliyevin vətəni kimi də tanıyırlar.

Koreyanın ölkəmizdəki səfiri Kim Çanq-Qyu Naxçıvanı gəzdikdən, onun tarixi abidələri ilə tanış olduqdan sonra uzaq Koreya xalqı ilə azərbaycanlıların ortaq tarixi köklərə malik olduğunu fərəhlə qeyd edib. Naxçıvanda heyrətamiz inkişafın şahidi olduğunu bildirən Beynəlxalq Miqrasiya Təşkilatının Beynəlxalq Əməkdaşlıq və Tərəfdaşlıq İdarəsinin direktoru xanım Jill Helken burada öz işini bilən savadlı, bacarıqlı kadrların fəaliyyət göstərdiyini xüsusi vurğulayıb.

İnsan hüquqlarının qorunması, ictimai təhlükəsizlik və tolerantlıq bugünkü Naxçıvan və naxçıvanlılar üçün həyatın bir hissəsi, yaşam tərzidir. Muxtar respublika ərazisində yerləşən dini obyektlərin bir çoxunun tarixi abidə kimi qorunması, Ordubad şəhərindəki qədim məbədin son illər yenidən qurulması məhz bu faktın bariz nümunəsidir. Dövlət səviyyəsində vətəndaşların hüququnun müdafiəsi, dövlət müəssisələri, rəsmi qurumlarla vətəndaşlar arasında əlaqələrin gücləndirilməsi, elektron hökumətin tam gücü ilə işləməsi üçün atılan addımlar beynəlxalq səviyyədə diqqəti çəkən məqamlardandır. Muxtar respublikada yaşayan əcnəbilərin yerli mühitə uyğunlaşması üçün onlarla aparılan müvafiq işlər, bəlkə də, dünya təcrübəsində bir ilkdir. Odur ki, Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Serhan Aktoprak Naxçıvana səfəri zamanı deyib: "Bu gün muxtar respublikada miqrasiya sahəsində qabaqcıl təcrübə formalaşıb. Biz bu təcrübəni öyrənirik". Onların milli dəyərlərimizlə sistemli şəkildə tanış edilməsi, muzeyləri, mədəniyyət müəssisələrini gəzmələri üçün göstərilən qayğı, sözsüz ki, Beynəlxalq Miqrasiya Təşkilatı üçün bir yenilikdir. O da faktdır ki, müasir dünyada hər bir dövlət və müxtəlif qurumlar təmsil edən hər kəs öz maraqlarından çıxış edir. Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursu, ölkəmizin inkişafı üçün vaxtında işləyib bizə yadigar qoyduğu və gələcəyə hesablanan proqramlar ilə qurulan Naxçıvanda məqsəd birdir – bu gözəl, tarixi məkanımızı hərtərəfli şəkildə dünyaya tanıtmaq. Əgər iş varsa, deməli deməyə söz də var.

*20 ildir, kərpic-kərpic qurulan, abadlaşan, gözümüzün önündəcə dəyişilən, öz gözəlliyi, tarixiliyi, müasirliyi ilə inkişaf edən bir Naxçıvan yaradanların arzusu və məqsədi bu gün hamıya bəlli olur. Dünyanın ən nüfuzlu təşkilatlarından, inkişaf etmiş ölkələrdən gələn insanları heyran edən müasir Naxçıvan Vətən sevgisinin və xalqa bağlılığın bəhrəsidir.*

**Səməd CANBAXŞIYEV**




# Tarix







*Ana yurdumuz Naxçıvan qədim abidələrlə zəngin ilk insan məskənlərindən biridir. Burada xalqımızın tarixi keçmişini, mədəniyyətini, adət-ənənələrini özündə yaşadan abidələr vardır. Naxçıvanda ilk insanın yaşadığı mağaralara, qədim yaşayış yerlərinə, möhtəşəm qala divarlarına, qayaüstü rəsmlərə, ən mükəmməl memarlıq incilərinə rast gəlmək mümkündür. Ümummilli liderimiz Heydər Əliyev deyirdi:* ***“Naxçıvanın böyük və zəngin tarixi vardır. Bu tarix dünya mədəniyyətinə böyük hədiyyələr vermişdir”.*** *Qədim Naxçıvan torpağı orta əsr və müasir dövr maddi-mədəniyyət nümunələri ilə olduqca zəngindir. Aparılan elmi tədqiqatlar hələ eramızdan əvvəl Naxçıvan ərazisində ulu əcdadlarımızın yaşayıb-yaratdığını göstərir. Naxçıvanda olan tarixi abidələr və maddi-mədəniyyət nümunələri onu nəinki Azərbaycanın, hətta dünyanın ən qədim yaşayış məskənlərindən biri olduğunu sübut edir. Hər qarışı bir zənginlik daşıyan muxtar respublikamızın bütün bölgələri qədim tarixin silinməyən izlərini daşıyır. Naxçıvan ərazisində olan dünya əhəmiyyətli abidələr, yüksək memarlıq üslubunda tikilən maddi-mədəniyyət nümunələri dünyanın bütün bölgələrindən turistləri özünə cəlb edə bilir.*

## Fərhad evi
### qeyri-adi tarixi abidələrdəndir



Bu abidələrin bəzisi zamanla yox olmuş, bəziləri isə günümüzə qədər gəlib çıxmışdır. Qədim sərvətlərin qorunub saxlanması və mühafizə edilməsi bir ölkənin inkişafından, onun elmə, mədəniyyətə verdiyi qiymətdən xəbər verir. Bir ölkənin tarixi dəyərlərini qoruması, keçmişinə sahib çıxması onun öz qüdrətinin sübutu və varlığının silinməzliyidir. Muxtar respublikamızda da tarixi abidələrə böyük diqqət göstərilir, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 6 dekabr 2005-ci il tarixli “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında” Sərəncamı bu sahəyə göstərilən diqqətin bir nümunəsidir.

Naxçıvan hələ qədim zamanlardan strateji əhəmiyyətə malik bir region olmuşdur. Onun Şərqlə Qərbi birləşdirən Böyük İpək Yolu üzərində yerləşməsi ticarət, sənətkarlıq və mədəniyyət mərkəzi kimi formalaşmasına şərait yaratmışdır. Karvanların bu ərazidən gediş-gəlişi isə heç də təsadüfi olmamışdır. İnsanlar üçün getdiyi ölkənin təhlükəsizliyi, yolların rahatlığı və burada yaşayan əhalinin münasibəti olduqca vacib idi. Ticarətin inkişafı üçün karvanların keçdiyi yollarda körpülər salınır, karvansaralar tikilir və su quyuları qazılırdı.

Karvan yolları üzərində yerləşən maddi-mədəniyyət nümunələrindən biri də “Fərhad evi” adı ilə tanınan arxeoloji abidədir. Bu abidə ölkəmizin dilbər guşələrindən biri olan Şahbuz rayonunun Biçənək kəndindən şərqdə yerləşən, füsunkar təbiəti ilə bura gələnləri valeh edən Batabat yaylağındadır. Naxçıvan-Laçın-Yevlax avtomobil yolundan sağda, Zorbulaqdan, təqribən, 1 kilometr şərqdə olan Fərhad evi liparit tuf qayada külüng tipli metal alətlə qazılmışdır. Abidə dörd otaqdan ibarətdir. Tavanlar tağ şəkilli, döşəmələri oval planlıdır. Şam, yaxud çıraq qoymaq üçün kiçik taxçalar qazılmış divarların dibində səki düzəldilmişdir. Aparılan tədqiqatlar abidənin e.ə. I minilliyin sonlarına və eramızın əvvəllərinə aid olduğunu deməyə əsas verir. Batabat yaylağında “Fərhad evi” adı ilə tanınan dayanacaq da yaradılmışdır. Orta əsrlərdə Naxçıvan-Batabat yolunda gediş-gəliş artdığından Fərhad evindən bir qədər şimalda karvansara tikilmişdir ki, buranı yerli əhali “Şah Abbas karvansarası” adlandırır. Fərhad evinin olduğu qayanın üstündə Fərhad cəsarətli cəngavər bir kişi və Şirin incəliyi olan qadın rəsmi həkk olunmuşdur. Qayanın şimal-şərq yamacında uzunluğu 5 metr, eni 80 santimetr, dərinliyi 30 santimetr hündürlüyündə səki qazılmış, səki boyunca isə 3 sətirlik qədim yazı yazılmışdır (çox güman ki, mixi yazı). Ancaq yazı oxunmaz vəziyyətə düşmüşdür. Yəqin ki, yazıda bu abidənin nə zaman və hansı sənətkar tərəfindən yaradıldığı barədə məlumat olmuşdur. Yaxınlıqdakı kurqantipli abidənin üzərindəki vişap oğurlanmışdır. Eyni zamanda buranın daş qapısı olduğu və əvvəllər bura dərman bitkiləri yığmağa gələn mənfur ermənilər tərəfindən sökülüb aparıldığı deyilir. Yeri gəlmişkən, Naxçıvan televiziyasının hazırladığı “Fərhad evi” televiziya filmində mərhum ziyalı Qaşdar Əliyevin dediyinə görə, 1981-ci ildə Bakı-Yevlax-Gorus-Naxçıvan qaz xəttinin çəkilişi zamanı bu abidəni dağıtmaq arzusuna düşənlər olmuşdur. O zaman bu xəttin çəkilişində ermənilər çoxluq təşkil edirdi. Erməni mühəndislərinin verdiyi plana görə, qaz xətti Fərhad evinin olduğu yerdən keçməli və bunun üçün də abidə dağıdılmalı idi. Görəsən, o böyük ərazidə qaz xəttinin keçəcəyi başqa yer yox idimi ki, bu tarixi abidəni sökmək lazım gəlirdi? Özgəsinin malında həmişə gözü olan ermənilərin xain oyunları baş tutmamışdır. Ümummilli lider Heydər Əliyevin müdaxiləsi ilə bu iş dayandırılmış, Fərhad evi qorunub saxlanılmışdır. Bu gün yolu Şahbuza düşən hər kəs Fərhad evini də görməyə can atır. Qeyd edək ki, abidənin birinci otağında olan quyu və ocaq yeri buranın uzunmüddətli yaşayış məskəni olduğunu da deməyə imkan verir. Fərhad evindən buradan keçən karvan əhli yayın istisindən və qışın soyuğundan qorunmaq üçün istifadə etmişdir. Tarix üzrə fəlsəfə doktoru Elbrus İsayevin “Böyük İpək Yolu və Naxçıvan” adlı kitabında qeyd olunur ki, el arasında bura “Aman evi” adlandırılmışdır. Bu da onun karvansara kimi istifadə olunması fikrini gücləndirir. Fərhad evinin qədim zamanlarda fərqli adlarla adlandırıldığını tarixi qaynaqlarda da görmək olur. AMEA Naxçıvan Bölməsinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin “Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri” adlı kitabında qeyd edildiyinə görə, Fərhad evi tarixdə “Ağ karvansara” adı ilə də tanınmışdır. Apardığımız araşdırma zamanı əldə etdiyimiz 1971-ci il 27 mart tarixli “Ədəbiyyat və incəsənət” qəzetində dərc olunan bir məqalədə oxuyuruq: “Fərhad evinin axırıncı otağının tavanında havanı tənzimləmək üçün baca açılmışdır. Abidənin yanından keçən qədim yolun kənarında müsafirlərə yol göstərən daş vardır. Daş iki metr hündürlüyündə olub, yuxarı hissəsi qolları yana açılmış heykələ oxşayır. Baş tərəfdə iki deşik açılmışdır. Arxeoloji tədqiqatlar göstərir ki, belə yol göstərən daşlar ilk orta əsrlər dövrü üçün səciyyəvidir”.

Son olaraq qeyd edək ki, abidənin “Fərhad evi” adlandırılması ilə bağlı olaraq el arasında rəvayət və əfsanələr dolaşır ki, onlardan biri böyük Azərbaycan şairi Nizami Gəncəvinin “Xosrov və Şirin” poemasındakı “Fərhad” adlı qəhrəman ilə bağlılığıdır. Fərhad öz sevgisi üçün dağları yarıb yol açmışdı. Xalq belə böyük bacarıq və səbir hesabına başa gələn sənət əsəri yaradan sənətkara hörmət əlaməti olaraq bu abidəyə “Fərhad evi” adını vermişdir.

*Bir vətəndaş olaraq hər birimiz tarixi dəyərlərimizi qorumalıyıq. Çünki şanlı tariximizlə yaşıd olan dəyərlərimiz bizim keçmişimiz, gələcəyə tutduğumuz işıqdır. Bir millət öz tarixinə və tarixi dəyərlərinə nə qədər sahib çıxsa, o qədər də varlığını davam etdirəcəkdir.*

✍ **Hüseyn ƏHMƏDOV**

## Naxçıvan buzxanaları



*Naxçıvan şəhərindəki Buzxana*

***“Hər bir yay fəsli küçələrdə arabalarda buz sallarını görəndə, bir tərəfdən o buzu şampanskilərə və ləzzətli marojnalara işlədən xoşbəxtlər gözümün qabağına gəlir...”.*** *Yəqin ki, görkəmli dramaturq Cəlil Məmmədquluzadənin “Buz” hekayəsindəki bu fikirlər çoxlarına tanışdır. Böyük ədibin uşaqlıq dövrünün təəssüratları altında qələmə aldığı bu hekayədən bəlli olur ki, XIX əsrin sonları, XX əsrin əvvəllərində Naxçıvan şəhərinin küçə və meydanlarında, bazarlarda buz satışı təşkil olunarmış. Əhali bu cür buz parçalarından sərinləmək üçün soyuq içkilərin hazırlanmasında, müxtəlif ərzaqların saxlanılmasında, təbabətdə geniş istifadə edərmiş.*

Naxçıvanın kəhriz və bulaqlarından gözyaşı kimi çağlayaraq axan sudan hazırlanan bu cür təbii buz parçaları yayın qızmar günlərində hər kəsə xoş gələrmiş. Belə təbii buzlar isə yerli buzxanalarda hazırlanarmış. Buzu hazırlamaq üçün qış aylarında binaya çəkilmiş kəhriz suyu zirzəmiyə yığılaraq buz halına salınar, əriməməsi üçün onların aralarına saman tökülərmiş. Bu işlə məşğul olan adamlar yay aylarında ayaqlarına keçə bağlayaraq buzu buradan çıxarar və satışını təşkil edərmişlər. Bəzi tədqiqatçılara görə isə axan su Buzxana yaxınlığında xüsusi hazırlanmış bir meydançaya yığılaraq dondurular, sonra kəsilən buz parçaları Buzxana binasına daşınaraq burada saxlanılarmış. Buna görə də orta əsrlərdən üzübəri Şərq aləmində məscid və hamamları, qala və saray kompleksləri ilə məşhur olan Naxçıvan həm də Buzxana binaları ilə tanınmışdır. Hazırda belə buzxanalardan ən böyüyü Naxçıvan şəhərindəki “İmamzadə” kompleksinin yaxınlığında yerləşən Naxçıvan Buzxanası abidəsidir. “Naxçıvan Abidələri Ensiklopediyası”nda bildirilir ki, bu abidə öz profilinə görə ölkəmizdə qeydə alınan ən böyük tikilidir. Yüksək memarlıq həllinə görə binanın Naxçıvan memarlıq məktəbinin inkişaf etdiyi XII-XIV əsrlərdə tikildiyi ehtimal olunur. Uzunluğu 20 metr, eni isə 9 metr olan bu bina ilk baxışdan birmərtəbəli binanı xatırlatsa da, ümumi hündürlüyü 9,6 metrdir. Binanın dam örtüyünün üzərində 6 ədəd kiçik günbəz ucaldılıb. Yüksək texniki səviyyədə kərpicdən qurulmuş örtük konstruksiyasının mükəmməl həlli, naturada tikilməsi, bina örtüyünün uzununa, yüngül və dinamik konstruksiya sxemi tərzində yaradılması Naxçıvan Buzxanasının səciyyəvi cəhətlərindəndir. Təxminən hər 3 metrdən bir qurulan çatmavari tağlararası boşluq çatma tağbəndlə örtülüb. Kərpic hörgü cərgələri yükdaşıyan tağlara nisbətən şaquli vəziyyətdə yerləşdirilib. Binanın örtüyündəki kərpic hissələrindən bəlli olur ki, tağların yuxarısında tağbəndlərin konstruksiyası dəyişir və onlar balaca tağbəndlərlə tamamlanır. Balaca tağbəndlər isə binanın əsas oxu boyu yerləşdirilib.



*Ordubad şəhərindəki Buzxana*

Bu cür oxşar konstruksiyadan Ordubad şəhərindəki Buzxanada da istifadə olunub. Tədqiqatçılara görə, bu Buzxana binası XIV əsrdə tikilib, XVIII əsrdə isə yenidən bərpa edilib. Binanın ümumi sahəsi 166 kvadratmetr, zirzəmisinin daxili sahəsi isə 89,4 kvadratmetrdir. Bişmiş kərpic və əhəng məhlulu ilə tikilən binanın divarlarının qalınlığı 80 santimetrdir. Bina daxili girişdə böyük otaqdan, ikimərtəbəli 36 pillədən və buz saxlanılan zirzəmidən ibarətdir. Tikilinin ümumi hündürlüyü 11,32 metrdir. Otağın tavanı düz səthi olub, zirzəminin tavanı hər biri 2,9 metr məsafədə yerləşdirilməklə iki qonşu tağın arasında çatma tağ-tavan şəklində həll edilib. Bu halda hörgü cərgələri daşıyıcı tağa perpendikulyar vəziyyətdə düzülüb. Kərpic hörgüyə əsasən, tağın zirvəsinə yaxın tağ-tavanın konstruksiyası dəyişilir. Bütün binanın mərkəzi oxu, tağların baş xətti boyunca xırda tavanlarla tamamlanır.

Muxtar respublikamızda digər Buzxana abidəsi isə Şərur rayonundakı Cəlilkənddə yerləşir. XIX əsrə aid olan bu bina dördkünc formasındadır və divarlar yuxarıda tağabənzər formada tamamlanır. Buzxananın daxilində isə divarlar boyunca dördkünc formalı səkilər tikilib. Tikinti zamanı nəfis şəkildə yonulmuş qaya parçalarından istifadə olunması abidəyə xüsusi görkəm bəxş etməklə yanaşı, həm də xalqımızın qədim memarlıq ənənələrindən xəbər verir.

Qeyd edək ki, yuxarıda adıçəkilən Buzxana abidələrinin hər biri ölkə əhəmiyyətli abidələrdir. Alimlərə görə, bu abidələrin tikilişindəki oxşar konstruksiyadan o dövrdə Təbriz və Ərdəbildə inşa olunan bazar komplekslərinin örtülü keçidlərində istifadə edilib. Buzxana abidələri regionda ticarət məqsədilə tikilən obyektlərdir. Buzxanalardan, yuxarıda da qeyd etdiyimiz kimi, əsasən, ərzaq məhsullarının təbii üsulla saxlanılmasında, buz satışında istifadə olunub.

Ancaq ötən əsrin ortalarından sonra elmi-texniki tərəqqinin inkişafı bir çox sahələr kimi soyuducu sənayesinə də sirayət edib ki, bu da, öz növbəsində, tarixi Buzxana binalarından istifadəni arxa plana keçirib. Nə yaxşı ki, belə tarixi binalarımız xalqımız tərəfindən qorunub saxlanılıb. Müstəqilliyimizin bərpasından sonrakı dövrdə isə Naxçıvanda tarixi abidələrə göstərilən dövlət qayğısı Buzxana binalarını da əhatə edib. Belə ki, son illərdə hər üç Buzxana abidəsi əsaslı şəkildə bərpa olunub. Hazırda bu Buzxana binalarından milli mətbəximizin təbliği üçün istifadə olunur. Bu da muxtar respublikamıza gələn qonaqlara tariximizi və mədəniyyətimizi birlikdə tanıtmağa imkan verir.

✍ **Səbuhi HƏSƏNOV**

# "Naxçıvan-2016" Beynəlxalq Şahmat Festivalı başa çatıb

*Mayın 18-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Naxçıvan-2016" Beynəlxalq Şahmat Festivalı qaliblərinin mükafatlandırma mərasimi keçirilib.*

Tədbirdə festivalın baş hakimi Faiq Həsənov çıxış edərək şahmatçılara yaradılan şəraitə görə təşkilatçılara minnətdarlığını bildirib. Qeyd olunub ki, muxtar respublikada mötəbər yarışların keçirilməsi artıq ənənə halını alıb. Dünyanın müxtəlif ölkələrindən şahmatçıların Naxçıvanda keçirilən bu festivalda iştirak etməyə böyük maraq göstərməsi bir daha onu sübut edir ki, yarışlara maraq ilbəil artır. Naxçıvanlı şahmatçıların ilbəil daha yüksək nəticələr göstərməsi muxtar respublikada şahmat idman növünün inkişafından, uşaq və yeniyetmələr, gənclər arasında bu idmanın kütləviliyinin təmin olunmasından xəbər verir.

Əvvəlcə yarışda yaxşı nəticələr göstərmiş ən kiçikyaşlı şahmatçılar, veteran şahmatçılar, müxtəlif yaş qruplarında fərqlənmiş qız və oğlan şahmatçılar mükafatlandırılıblar.





"C" qrupunda I yeri Sumqayıt şahmatçısı Fərid Orucov tutub. II yerə Bakı şahmatçısı Kənan Qasımov, III yerə onun həmyerlisi İsmayıl Qurbanov layiq görülüb. IV yerin qalibi Naxçıvan şahmatçısı Sadiq Qarayev olub. Bu qrupda birinci yerin sahibinə mükafatı Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov təqdim edib.

"B" qrupunda isə I yerə 8 xalla Naxçıvan şahmatçısı Vüsal Abbasov çıxıb. II yerə Sumqayıt şahmatçısı Murad İbrahimli, III yerə isə Biləsuvar şahmatçısı Xəzər Babazadə layiq görülüb. I yeri tutan Vüsal Abbasova mükafat Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov tərəfindən təqdim olunub.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş şahmat festivalının "A" qrupunun qalibi, azərbaycanlı qrossmeyster Eltac Səfərli olub. Festivalda II yerə azərbaycanlı qrossmeyster Şəhriyar Məmmədyarov, III yerə isə ukraynalı şahmatçı Yuriy Kuzubov layiq görülüb. Ümumilikdə, "A" qrupunda 25 zəka sahibi mükafatlandırılıb. Beynəlxalq festivalın qalibi Eltac Səfərliyə kubok və mükafatı Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Vüqar Səfərov təqdim edib.

Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş şahmat festivallarının keçirilməsinin artıq ənənə halını aldığını bildirən federasiyanın sədri Vüqar Səfərov deyib ki, ulu öndərimiz Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə idmanın, eləcə də şahmat idman növünün inkişafına böyük diqqət göstərib.

Qeyd edilib ki, hazırda bu iş ulu öndərimizin layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Artıq bir neçə ildir, keçirilən şahmat festivalları dünyanın müxtəlif ölkələrindən gəlmiş şahmatçılar arasında dostluq əlaqələrinin möhkəmləndirilməsinə, şahmatçıların böyük yarış təcrübəsi əldə etməsinə şərait yaradıb.

Vüqar Səfərov maraqlı və çətin mübarizə şəraitində keçən şahmat yarışının iştirakçılarını və qaliblərini təbrik edərək zəka sahiblərinin növbəti illərdə də Naxçıvanda keçiriləcək şahmat yarışlarına qatılacaqlarına əminliyini ifadə edib.

Bununla da, ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Naxçıvan-2016" Beynəlxalq Şahmat Festivalı başa çatıb.

**Xəbərlər şöbəsi**

## Peyntbol üzrə muxtar respublika turniri keçirilib



*Naxçıvan Atıcılıq Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda peyntbol üzrə Naxçıvan Muxtar Respublika turniri keçirilib. Ali və orta ixtisas təhsili müəssisələri komandalarının mübarizə apardığı turnir 2 gün davam edib.*

Turnirin mükafatlandırma mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının sədri Asəf Məmmədov bildirib ki, müstəqil Azərbaycan Respublikasında uğurla həyata keçirilən idman siyasətinin təməlində ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə bu sahəyə göstərdiyi qayğı dayanır. Bu gün Azərbaycanda idman siyasəti keyfiyyətcə yeni mərhələdə davam etdirilir. Naxçıvan Muxtar Respublikasında da gənclərin intellektual səviyyələrinin artırılması, asudə vaxtlarının səmərəli təşkili, vətənpərvər ruhda tərbiyə olunması daim diqqətdə saxlanılır, muxtar respublikanın şəhər və rayonlarında idman obyektləri tikilib onların ixtiyarına verilir. Hazırda Naxçıvanda bu sahənin inkişafı üçün hər bir şərait yaradılıb və gənclərin idmana cəlbi yönündə məqsədyönlü tədbirlər görülür.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Atıcılıq Federasiyasının birgə təşkil etdiyi "Heydər Əliyev kuboku" uğrunda peyntbol üzrə turnirdə Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərinin, Naxçıvan Müəllimlər İnstitutunun, Naxçıvan Tibb, Musiqi və Naxçıvan Dövlət Texniki kolleclərinin, Heydər Əliyev adına Hərbi Liseyin 2 oğlan və 1 qız komandaları olmaqla, ümumilikdə, 18 komandası mübarizə aparıb.

Yekun nəticəyə əsasən, oğlanların mübarizəsində Naxçıvan Dövlət Universitetinin komandası turnirin qalibi adını qazanıb. Digər iki pillədə isə Heydər Əliyev adına Hərbi Liseyin və Naxçıvan Tibb Kollecinin komandaları qərarlaşıblar.

Qızların mübarizəsində də Naxçıvan Dövlət Universitetinin komandası hamıdan güclü olub.

Sonda qaliblər mükafatlandırılıb.

## Basketbol birinciliyinin qalibi "Naxçıvan" komandası olub

***Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda 1999-2000-ci illər təvəllüdlü yeniyetmə oğlanlar arasında basketbol üzrə Naxçıvan Muxtar Respublika birinciliyi başa çatıb. 8 komandanın mübarizə apardığı birincilik Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilib.***



Reqlamentə əsasən, birincilik iştirakçıları "A" və "B" qruplarında ilk pillə uğrunda meydana çıxıblar. "A" qrupunda "Naxçıvan", "Babək", "Sədərək", "Şahbuz", "B" qrupunda isə "Ordubad", "Culfa", "Şərur" və "Kəngərli" komandaları yer alıblar. Üç gün davam edən birincilikdə qrup mərhələsini ilk pillədə başa vuran "Naxçıvan" və "Ordubad" komandaları finalda, qruplarda ikinci olan "Babək" və "Culfa" isə üçüncülük oyununda meydana çıxıblar. Üçüncülük matçında Babək basketbolçuları culfalı rəqiblərini üstələyərək birinciliyin üçüncüsü olublar. Həlledici qarşılaşma da maraqlı olub. "Naxçıvan" komandası ilə görüşdə hesabda öndə olmasına baxmayaraq, "Ordubad" komandası bu üstünlüyünü sonadək qoruya bilməyib və meydanı məğlub tərk edib. 42:29 hesablı qələbə "Naxçıvan" komandasına "Heydər Əliyev kuboku"nu qazandırıb.

Sonda qalib komandalar diplom və hədiyyələrlə mükafatlandırılıb. Mükafatları Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov, təhsil naziri Məmməd Qəribov və Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının sədri Mahir Əliyev təqdim ediblər.

**Ceyhun MƏMMƏDOV**

***Naxçıvan mötəbər bir şahmat bayramına – Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə keçirilən "Naxçıvan-2016" Beynəlxalq Şahmat Festivalına ev sahibliyi edib. Festivala gəlmiş hakimlərin və iştirakçıların maraqlı fikirlərini oxucularımızla bölüşürük. İlk olaraq şahmatçılarla həmsöhbət olduq.***

## Festival iştirakçıları Naxçıvandan yüksək təəssüratlarla ayrılırlar



*İqor XENKİN (Almaniya):* – Görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunan bu festivalda iştirak etdiyim üçün böyük qürur hissi keçirirəm. Naxçıvanı hər zaman xoş xatirələrlə yada salacağam. İnanıram ki, digər şahmatçılarda da bu diyar haqda zəngin təəssürat yaranıb. Mən özüm rusiyalı olsam da, uzun müddətdir ki, Almaniyanın Frankfurt şəhərində yaşayıram, bu ölkənin vətəndaşlığını qəbul etmişəm. Alman şəhərləri ilə Naxçıvan şəhərinin bir sıra oxşar cəhətləri var. Almaniyada olduğu kimi, burada da insanlar şəhərin təmizliyinə, səliqə-sahman yaradılmasına diqqət göstərirlər. Hər yerdə ciddi nizam-intizam hökm sürür, yarışlar, necə deyərlər, əsl alman dəqiqliyi ilə keçirilir. Bu şəhəri alman şəhərlərindən fərqləndirən cəhət isə insanların qonaqpərvərliyi, istiqanlılığıdır. Yarışları izləməyə gələn yerli sakinlər bizimlə yaxından maraqlanır, ünsiyyət qurur, Naxçıvanın maraqlı məkanlarına gedib-getmədiyimizi soruşurlar. Bir sözlə, Naxçıvan və naxçıvanlılar haqda ancaq yaxşı sözlər demək olar.



*Omid Noroozi (İran):* – Naxçıvanda şahmatçılar üçün yaxşı şərait yaradılıb və asudə vaxtımız da səmərəli təşkil edilib. Naxçıvan bir şahmatçı üçün ideal məkandır. Bizə yaradılan şəraitə görə şahmatçı yoldaşlarım adından minnətdarlığımı bildirirəm. Naxçıvan şəhərinə gəldikdə isə deyə bilərəm ki, şəhəriniz çox gözəl, cəlbedici və müasirdir. Sakitlik, əmin-amanlıqdır. Bu, inkişafın göstəricisidir. Mən elə hiss edirəm ki, hansısa inkişaf etmiş Avropa şəhərindəyəm. Bu diyara birinci dəfədir, gəlirəm. Onu da deyim ki, Naxçıvanda şahmata böyük maraq var. Festival yüksək səviyyədə keçirildi. Bu səbəbdən də dünyanın müxtəlif ölkələrindən buraya öz gücünü sınamağa gəlmiş şahmatçı yoldaşlarım razılıq edirlər. Festivala dəvət alanda çox sevindim. Ona görə sevindim ki, yeni dostlar qazanmaq, Naxçıvanı tanımaq imkanı əldə edəcəkdim. Muxtar respublika bu festivalla dünyanın müxtəlif ölkələrindən gələn insanları bir araya toplayıb. Bu, məncə, böyük nailiyyətdir. Bir də ona görə məmnunam ki, Naxçıvan bizi qonaqpərvərliklə qarşıladı.

### *Naxçıvanlı şahmatçılarda qələbə əzmi böyükdür*



"Bu gün muxtar respublikada şahmatın inkişafına diqqət və qayğı var. Bu idman növünə həvəs göstərən bir nəsil yetişməkdədir. Hər il təcrübəli məşqçilərin muxtar respublikaya dəvət olunması elə bu qayğıdan xəbər verir. Şahmatçıların oyun yaradıcılığı, qələbə əzmi yüksək səviyyədədir. Onu da deyim ki, muxtar respublika blokadada olmasına baxmayaraq, naxçıvanlı şahmatçıların kənarda keçirilən yarışlarda da iştirakları təmin olunur. Bu şahmatçılarda qələbə qazanmaq üçün böyük istək var". Bu sözləri beynəlxalq dərəcəli hakim, yarışın hakimi Namiq İsmayılov qəzetimizə müsahibəsində bildirib.

"Şahmat elə bir idman növüdür ki, ona göstərilən diqqət bir neçə ildən sonra bəhrələrini verməyə başlayır. Bu, dünya təcrübəsində təsdiq olunan fikirdir. Növbəti festivalda da naxçıvanlı şahmatçıların yaxşı oyun nümayiş etdirdiklərinin şahidi oldum. Burada olarkən onu da öyrəndim ki, indi məktəbli uşaqlar sərbəst oyun şəraitində keçilən dərslərdə həvəslə iştirak edirlər. Bu uşaqlar şahmatla ilk dəfə elə orta məktəbdə tanış olur və yaxşı nəticələr göstərirlər", – deyən Namiq İsmayılov onu da qeyd edib ki, bu dərslər uşaqların məntiqi düşünmə qabiliyyətinin inkişaf etdirilməsindən başqa, daha qabiliyyətliləri 8-9 yaşında müəyyən etməyə imkan verir. Sonra onların məşqlərini ixtisaslaşdırılmış dərnək və məktəblərdə davam edə bilmək imkanları olur. Muxtar respublikada orta məktəblərdə şahmat dərslərini təşkil etmək təşəbbüsünü alqışlayıram. Məncə, bütün valideynlər də belə düşünürlər. Şahmat aydın məqsədi, intizamlı və sistemli düşünmə qabiliyyəti olan insanlar yetişdirir.

**Səbuhi HÜSEYNOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 385